# Azərbaycan Ordusunun adı çağdaş tariximizə zəfərlə yazılıb

***Bugünlərdə xalqımız Azərbaycan ordusunun yaranmasının 104-cü ildönümünü 2 ildən bəri yaşadığımız zəfər duyğu-düşüncələrinin ikiqat təntənəsi ilə qeyd etdi. 2020-ci ilin payızında 44 günlük müharibə günlərində Azərbaycan Silahlı Qüvvələri müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin etməklə güclü və çevik döyüş qabiliyyətli bir ordu olduğunu bütün dünyaya sübut etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi xalqımızın çoxəsrlik hərbi-döyüş salnaməsinə ən parlaq səhifə kimi yazıldı.***

26 iyun müstəqillik illərində Azərbaycanda Silahlı Qüvvələr Günü kimi qeyd olunur. Bu tarix milli dövlətçiliyimizi bərpa etmiş Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğuna başladığı gündür.

AXC hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk milli hərbi hissə olan Əlahiddə Korpus yaradılmışdı. Həmin ilin avqustun 1-də isə milli hökumət Hərbi Nazirliyi təsis etmişdi. Dekabrın 25-də general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əlağa Şıxlinski nazir müavini təyin edilmişdilər. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən Əlahiddə Azərbaycan korpusunun təşkil olunduğu gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olunmuş və hər il bu tarixin rəsmi dövlət bayramı kimi qeyd edilməsi qərara alınmışdır.

1918–1920-ci illərdə Milli Ordu qısa müddətdə Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etmişdi. İlk milli hərbi birləşmələr Muğanda və Qarabağda milli hökumətə qarşı qiyamları yatırmış, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni ordu hissələrini darmadağın etmişdi. AXC süqut etdikdən sonraqanlı bolşevik hakimiyyəti Azərbaycanın milli ordu qurumlarını ləğv etmiş, onun rəhbərlərinin əksəriyyətini həbsə atmış, güllələmişdi.

Sovet dövründə isə xalqımızın döyüş ənənəsini zəifləđib yox etmək üçün azərbaycanlı gənclər əsasən hərbi texnikanın olmadığı, döyüş təlimlərinin aparılmadığı yerlərdə, tikinti-inşaat taborlarında hərbi xidmətə aparılırdılar. Məqsədi soydaşlarımızın hərbi biliklərə və döyüş bacarıqlarına yiyələnməsinin qarşısını almaq idi. Ümummilli lider Heydər Əliyev 1969-cu ildə respublikada hakimiyyətə gəldikdən sonra bu bədnam siyasətin qarşısını almaq üçün zəruri tədbirlər görməyə başladı. 1971-ci ildə ulu öndərin təşəbbüsü və qətiyyətli səyləri ilə C.Naxçıvanski adına İxtisaslaşdırılmış Hərbi Məktəb yaradıldı. Bununla yanaşı, böyük rəhbər azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin bir çox hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmalarınaına nail oldu.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin böhranı yayında xalqın tələbi ilə müstəqilliyimizin xilaskarı kimi Hakimiyyətə qayıdandan sonra ilk önəmli tədbirlər sırasında Azərbaycan Ordusuna vahid komandanlığı təmin etdi. Böyük dövlət qurucusunun gündəlik diqqət və qayğısı ilə ordunun maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, silahlı qüvvələrin döyüş qabiliyyəti yüksəldildi. Hərbi hissə və birləşmələrin təlim, təchizat və maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı.

Hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Məktəb liseyə çevrildi. 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyası yaradıldı. 20 avqust 2001-ci ildə isə ordunun hazırlığının təkmilləşdirilməsi məqsədilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi təsis edildi. Müdafiə Nazirliyinin sistemində fəaliyyət göstərən ali hərbi məktəblər Azərbaycan Ali Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Ümummilli lider Heydər Əliyevin gerçəkləşdirdiyi məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, qeyri-qanuni silahlı dəstələr ləğv edildi. Orduda peşəkarlığı artırmaq, ixtisaslı hərbçilər yetişdirmək üçün zəruri tədbirlər həyata keçirildi. Peşəkar və hazırlıqlı zabitlərin Türkiyə Silahlı Qüvvələrində təhsil almalarına start verildi.

Ümummilli lider Heydər Əliyev siyasətinin ən layiq davamçısı İlham Əliyev 2003-cü ildə hakimiyyətə gəldikdən sonra ordu quruculuğunda yeni dövr başladı. 2003-cü ildən bu günə qədər ölkənin hərbi büdcəsi 15 dəfə artaraq ordtunun hərbi-texniki təchizatı və hərbçilərin həyat şəraiti əsaslı surətdə yaxşılaşdırıldı. Ölkədə yeni hərbi şəhərciklər yaradıldı, mövcud hərbi hissələr yenidən tikildi və əsaslı təmir edildi. Prezident İlham Əliyevin 2007-ci il 12 iyun tarixli sərəncamı ilə Dövlət Sərhəd Xidmətinin də Akademiyası yaradıldı.

Ali Baş Komandan hər zaman haqlı olaraq belə hesab edib ki, Vətəni qoruyan, onun təhlükəsizliyini təmin edən, düşmən hücumlarına və təxribatlarına özünü sipər edən şəxslərin sosial rifahı, yaşam səviyyəsi yüksək olmalı, onlar maddi çətinlik, mənzil problemi kimi problemlərə üzləşməməlidir. Bu məqsədlə dövlət başçısı İlham Əliyev hərbçilərin sosial təminatının gücləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirib. Azərbaycan Ordusunda 20 il və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçular dövlət hesabına mənzillə təmin edilib.

Prezident İlham Əliyevin təşəbbüsü ilə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmış, bu müəssisələrdə 1200 adda hərbi təyinatlı məhsullar istehsal olunur. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibəti ilə 2018-ci il 26 iyunda Bakıda möhtəşəm parad keçirildi. Təntənəli hərbi keçiddə 240-dan çox hərbi texnika, gəmi, 70-dən artıq uçuş vasitəsi, o cümlədən ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları nümayiş olundu. Bu parad ordu quruculuğunda qazanılan uğurların təsdiqi oldu və dünyaya göstərdi ki, Azərbaycan Ordusu güclüdür, qüdrətlidir, torpaqlarımızı qorumağa, işğaldan azad etməyə qadirdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin ordumuzun inkişafına daim qayğı göstərməsi, onun daha da qüdrətli olması üçün bütün tədbirləri həyata keçirməsi nəticəsində silahlı qüvvələrimiz Qafqazın ən güclü, dünyanın isə 50 ən güclü ordusu sırasında yer almışdır. Elə bunun nəticəsidir ki, 2020-ci ildə qüdrətli ordumuz illərdən bəri qarşısında duran ən mühüm vəzifənin öhdəsindən layiqincə gəldi – 30 ilə yaxın düşmən tapdağında olan müqəddəs torpaqlarımızı geri qaytardı.

Prezident İlham Əliyev hər zaman sülh tərəfdarı olaraq münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq istəmişdi. Lakin bu danışıqlar heç bir nəticə vermədiyi üçün, Ali Baş Komandanımızın əmri ilə 2020-ci ilin payızında Ordumuz səfərbər oldu. Qəlbində Vətən sevgisi, Vətən eşqi olan minlərlə qeyrətli oğullarımız könüllü olaraq ordu sıralarına yazıldılar. Ali baş Komandanımızın 2020-ci il 27 sentyabrda verdiyi əmrlə qismən səfərbərlik elan olundu. Rəşadətli ordumuzun qüdrətli əsgərləri, hərbçiləri misli görünməmiş qəhrəmanlıq nümayiş etdirdilər.

Şuşa döyüşləri dünya hərbtarixində yeni bir nümunə kimi tarixə yazıldı. Prezident İlham Əliyev Azərbaycan əsgərlərinin Şuşa şəhərinə çatmaq üçün yarğanları, meşələri və dağları keçdiklərini misilsiz qəhrəmanlıq kimi qeyd etmişdi. Çünki Qarabağın tacı, döyünən ürəyi Şuşa təbii istehkam olduğundan şəhərə tanklarla, və digər ağır silahlarla girmək mümkün deyildi. Şəhərin bombardman edilməsi böyük dağıntılara səbəb olacağından alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçildi. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. O, xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən demişdi: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

Azərbaycan Ordusu 44 günlük müharibə ərzində "Harop" zərbə pilotsuz aparatlarından, o cümlədən İsraillə birgə Azərbaycanda istehsal olunan "Zərbə" dronlarından və digər PUA-lardan, o cümlədən "Bayraktar TB2" zərbə pilotsuz təyyarələrindən geniş istifadə etdi. Təkcə Bayraktar TB2 dronları vasitəsilə Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv edildi.

Rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu, dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. Ermənistan ordusu demək olar ki, məhv edildi, düşmənin 3,8 milyard dollarlıq silah-sursatı sıradan çıxarıldı. İşğalçı Ermənistan müharibəni davam etdirmək iqtidarında olmadığını anlayaraq noyabrın 10-da üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. Bu bəyanatla düşmən Ağdam, Kəlbəcər və Laçın rayonlarını da döyüşsüz Azərbaycana təhvil verdi.

Bu möhtəşəm qələbədən sonra Bakıda Prezident İlham Əliyevin təşəbbüsü ilə Hərbi Qənimətlər Parkı yaradıldı. Bura gələn hər bir şəxs Silahlı Qüvvələrimizin gücünə bir daha şahid olur. Bu parkda toplanan texnika Ermənistanın acınacaqlı məğlubiyyətinin nümayiş etdirir. Burada nümayiş olunan texnika məhv edilmiş və qənimət kimi götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. Verilən məlumata görə, 44 günlük müharibədə Ermənistanın hərbi birləşmələrində 10 min fərari qeydə alınıb. Azərbaycan Ordusunda isə bir dənə də belə fakt aaşkarlanmayıb.

Vətən müharibəsində şanlı Qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanıldı. Şəhidlərimizin, qazilərimizin və müharibə iştirakçılarımızın qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Sentyabrın 27-si Prezidentin sərəncamı ilə şəhidlərimizin xatirəsinə Anım Günü elan olundu. Xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini ehtiramla yad edir.

Prezident İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu) yaradıldı. Vətən müharibəsində həlak olan şəhidlərin ailələrinin evlə təmin edilməsi ilə bağlı Prezidentin məlum göstərişi də, "YAŞAT" Fondunun yaradılması da Müzəffər Ali Baş Komandanın öz zabitinə, öz əsgərinə, onların ailə üzvlərinə olan doğma münasibətinin göstəricisidir.

Bu gün Qafqazda ən müasir hərbi gücü olan Azərbaycan Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. Biz yurdumuzin etibarlı müdafiəçisi olan qalib ordumuzla haqlı olaraq fəxr edirik.

***Nuridə ƏLİZADƏ,***
***hüquqşünas***